AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

# "MÜASİR DÖVRDƏ EFFEKTİV İDARƏETMƏNİN PROBLEMLƏRİ"

*mövzusunda*

## V RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ

# MATERİALLARI

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

**Emil AĞAYEV**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası,**
**magistr**
**Emil.agayev@mail.ru**

## Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu: problem və perspektivlər

## Роль искусствоведов в управлении и развитии музеев: проблемы и перспективы

## The role of art critics in the management and development of museums: challenges and prospects

**Xülasə:** Bu məqalədə sənətşünasların muzeylərdəki rolu təhlil olunmuşdur.
**Açar sözlər:** Sənətşünaslıq, təsviri incəsənət, muzey

**Резюме:** В данной статье анализируется роль искусствоведы в музеях.
**Ключевые слова:** Искусствоведение, изобразительное искусство, музей

**Summary:** This article analyzes the role of art critics in museums.
**Keywords:** Art criticism, fine arts, museum

Sənətşünaslıq akademik sahə olub, özündə incəsənətin ayrı-ayrı sahələrinin nəzəri biliklərini birləşdirir. Sənətşünaslığın özünəməxsusluğu ilə seçilən qollarından biri də təsviri incəsənət tarixi və nəzəriyyəsidir. Özündə təkcə təsviri incəsənəti deyil fəlsəfəni, psixologiyanı və əsərlərin bərpasını birləşdirən sənətşünaslığın bu qolu muzeylərin inkişafı ilə sıx bağlıdır. Bir elm kimi özündə təhlil metodlarını birləşdirən təsviri incəsənət tarixi muzeydə yerləşən incəsənət əsərlərinin düzgün şəkildə təhlil-metodoloji üsulunda mühüm rol oynayır. Təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə sənətşünasların muzeylərdəki roluna geniş şəkildə nəzər yetirək. Atribusiya metodu-bilicilik kimi də tərif edilir. Onun əsas məqsədi-əsərin yaranma tarixini, bədii məktəbini, yerini və rəssamın adını, manerasını müəyyən etməkdən ibarətdir. Atribusiya metodunu Vazari istifadə etsədə, əsasən Yeni dövrdə inkişaf edir. Məhz XIX əsrdən etibarən atribusiya metodu geniş şəkildə inkişaf edir. Bu metod muzeylərdə əsərlərin düzgün şəkildə müəlliflərinin araşdırılması ilə bərabər, xalqın tarixinin gələcək nəsillərə düzgün şəkildə ötürülməsinə də xidmət edir. Atribusiya sənətşünasdan böyük peşəkarlıq tələb edir. Çünki rəssamların fərdi təsvir manerasını bilərək, tarixi dövrdə cərəyan və ya üslubun xarakterlərini, əsas xüsusiyyətlərini dərindən anlayaraq əsərlərin hansı rəssama aid olduğunu araşdırmalıdır.

Muzeylərdə sərgilərin təşkili - muzeylərin özünü tanıtması sərgilərin təşkili ilə sıx bağlıdır. Hər bir sənətkar üçün də bu böyük uğur sayılır. Sənətşünas-kuratorlar bu işlə daha məsuliyyətlə məşğul olurlar. Azərbaycan üçün kuratorluq sahəsi daha gənc olduğu üçün hələ də öz inkişaf mərhələsini keçir. Sərgidə nümayiş etdirilən əsərlərin düzgün şəkildə qurulması, ardıcıllığı və məkanın dəqiq qiymətləndirilməsi kuratorların üzərinə düşür. Təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə formalaşan sənətşünaslar kurator kimi də böyük uğurlar qazanırlar. Azərbaycan sənətşünaslarından istər öz ölkəmizdə, istərsə dəxarici ölkələrdə sərgilərin təşkil olunmasında böyük xidmətləri olmuş professor Leyla Axundzadənin adını xüsusilə vurğulamalıyıq.

Muzeylərdə kataloqlar və məqalələrin işlənilməsi- Sənətşünaslar incəsənət üzrə yazarlar hesab olunurlar. Hər bir sənətşünas yaradıcılığında olan məqalələri, monoqrafiyaları və internet portallarında çıxan yazıları ilə tanınırlar. Muzeylərdə keçirilən sərgilər zamanı kataloqlardakı məqalələrin işlənməsi tamaşaçının diqqətini çəkməlidir. Əsərlərin tarixi-xronologiyası, texnikası düzgün şəkildə planlaşdırılmalıdır. Azərbaycanda yerləşən muzeylərdəki hər bir əsər haqqında təhlillər üzərində çox zaman sənət tarixçiləri işləyirlər. Bəzən isə çox təssüflər olsunki, qeyri-ixtisas sahiblərinə bu işi həvalə edərək uğursuzluqlara da məruz qalırıq.

Muzeylərdə bələdçilik işinin təşkilinə də nəzər yetirsək sənətşünaslıq ilə sıx bağlı olduğunu vurğulamalıyıq. Çünki bu sahə üzrə təhsil alan bələdçilər əsər-eksponat barəsində daha geniş məlumat və biliklərə malikdirlər. Çox təəssüf olsun ki, bu gün biz muzeylərdə bələdçilərin hətta texniki elmlər üzrə təhsil alanları da görə bilərik. Sənətşünas-ekspert- özünəməxsus incəlikləri ilə seçilən təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə sənətşünaslığın bu sahəsi ölkənin incəsənət tarixinin kənara çıxmasının qarşısını alır. Sənətşünas ekspertlər əsərin saxta və doğru olmasını qiymətləndirməyi bacarmalıdırlar.

Sənətşünas-bərpaçı- Muzeylərdə bu sahə ilə məşğul olan mütəxəssislər daima axtarışda olurlar. Çünki yeni bərpa metodları ildən-ilə yenilənir. Bərpaçı-sənətşünaslar hər bir əsər-eksponatın əsas xüsusiyyətini qoruyub saxlamağı bacarmalıdırlar. Azərbaycanın bu sahə üzrə ən tanınmış mütəxəssisi əməkdar incəsənət xadimi Natiq Səfərovun adını qeyd etməliyik.

Əsər-eksponatların muzeydən oğurlanmasının qarşısının alınmasında sənətşünasların rolu- Hər bir sənətşünas incəsənət üzrə öz üzərinə öhdəlikləri uğurla yerinə yetirilməlidir. Çox təssüf olsun ki, bəzən biz muzeylərimizdə xoşagəlməz oğurluqlara da rast gəlirik. Hələ 1993-cü illərdə muzeylərimizin birində baş vermiş oğurluq zamanı həmin dövrün tanınmış sənətşünasları nədənsə bu əsərləri vacib hesab etməyərək ölkədən çıxarmaq istəmişlər. Ümummilli lider Heydər Əliyevin bu işə qarışması ilə bütün hər bir mənfi halların üstü açılmışdır. Professor Ziyadxan Əliyev həmin zamanda öz etirazını açıq şəkildə bildirsə də, təəssüflər olsun ki, həmin dövrdə məşhur olan sənətşünas-alimlər ona mane olmağa çalışmışlar. Bu hadisə barəsində mətbuatda çoxlu yazılar dərc edilmişdir.

Sənətşünaslıq və muzeyşünaslıq elmlərinin qarşılıqlı əlaqəsi- Hər iki sahə bir-biri ilə sıx bağlı olub, bu sahə üzrə mütəxəssislərin hər iki elm barəsində geniş məlumatlı olmasını qeyd etməliyik. Müasir dövrdə "İncəsənətdə idarəetmə" mexanizminə nəzər yetirsək, sənətşünasların muzeylərin hər bir bölməsi və idarəetməsində rolunu xüsusilə vurğulamalıyıq.

"Sənətşünasların muzeylərin inkişafı və idarəetməsində rolu:problem və perspektivlər " tezisinin əsas nəticələri aşağıdakılardır:

1.Sənətşünaslıq elminin xüsusilə təsviri incəsənət tarixi və nəzəriyyəsi üzrə formalaşan mütəxəsislərin muzeylərdəki rolu təhlil olunmuşdur.

2. Sənətşünaslıq və muzeyşünaslıq arasında əlaqələr açıqlanmışdır.

3. Sənətşünaslığın hər bir qolu üzrə öz xidmətləri olan alim-incəsənət xadimlərinin adları və onların xidmətləri barəsində məlumatlar verilmişdir.

4.Muzeylərin idarəetməsinin inkişafında bu gündə problemlər qalmaqdadır.

**ƏDƏBİYYAT**


1. 1.Əliyev Ziyadxan "Sənətşünas taleyi" Bakı, 2018, 495 s
2. 2.Kərimova Sevil "İncəsənət əsərlərinin təhlili" (dərs vəsaiti), Bakı, Şərq-qərb,2018, 183 s